

KHANLOU

saatlarda əlavə hərəkət istiqaməti yaratmaq üçün avto-mobil yolları lazım olan istiqamətə yönəldilir.

### 10. Küçə Dayanacaqları

Şəhərdə yaranan tıxacların əsas səbəblərindən biri də sürücülərin avtomobillərini düzgün saxlamamasıdır. Nəqliyyat vasitələri istənilən yerdə və istənilən istiqamətdə saxlanılır—iki sıra, üç sıra və perpendikulyar saxlama, yolun küncündə müxtəlif bucaq altında, və hətta bir tərəfli hərəkət olan küçələrdə əks istiqamətdə saxlama. Planlı və nizamlı avtomobil saxlama qaydası mövcud olmadığından bu vəziyyətlər adi hal almışdır.

Dayanacaq yerləri təyin olunmalı və yollar sürücülərin avtomobillərini standart dayanacaq yerlərində saxlaması üçün xətlənməlidir. Şəhər mərkəzində və ticarət zonalarında dayanacaq sayğacları quraşdırılmalıdır. Hal-hazırda Bakıda dayanacaq üçün nəzərdə tutulmuş heç bir dənə də sayğac yoxdur. Bu cihazlar şəhəri sabit gəlir mənbəyi ilə təmin edə və dayanacaqların nizamlanmasına və yol hərəkəti istiqamətinin yüngülləşdirilməsinə kömək göstərə bilər.

### 11. Polisinin Yenidən Təlimləndirilməsi

Yol polisi nəqliyyat sıxlığını və nəqliyyat axınını yüngülləşdirmək prosesində aktiv rol oynamaq və günün tələblərinə cavab vermək üçün yenidən təlim keçməlidir. Polisin sürücülərin birtərəfli hərəkət istiqaməti olan küçələrdə əks istiqamətdə hərəkət etmələrinə, avtomobili iki sıra və ya üç sıra saxlamalarına göz yumması nadir hal deyil. Azərbaycanda bu qanun pozuntuları ictimai yerlərdə problem yaradan və nəqliyyat axınına maneə törədən ciddi pozuntular kimi yox, norma kimi qəbul olunur.

Təlimlər nəqliyyat axınını sürətləndirməyin və Bakının izdihamlı küçələrində yaranan vəziyyəti yüngülləşdirməyin yollarına diqqəti yönəltməlidir. Bəzən olur ki, məhz yol polisinin özü yol hərəkəti zamanı baş verən hadisələri yalnış şəkildə qiymətləndirir və bununla da vəziyyətin nəzarətdən çıxmasına və şəhərdə trafikə səbəb olur.

### 12. İnşaat Sahələri

Tikinti sahələrində aparılan işin küçənin yarısını zəbt etməsinə və sahənin hasarlanması vasitəsilə yolun yarısını bağlamasına icazə verilməməlidir. Hal-hazırda bəzi inşaat işlərinin illərlə davam etməsinə baxmayaraq, bu hal normal hesab olunur. İctimai yerlərdə problem yaratdığına görə buna icazə verilməməli və bu vəziyyətin qarşısı alınmalıdır.



KHANLOU

Los Ancelesdəki Metro Layner şirkətinin yeni avtobus dayanacağı yeni ictimai nəqliyyat sisteminə əla bir nümunədir. Bu sistem özündə təhlükəsizlik, effektlilik, rahatlıq və gözəlliyi birləşdirir. Pavilyona üstüörtülü dayanacaq, ilyuminasiya, xəritə, avtomat bilet maşını, növbəti avtobusun gələcəyi vaxtı göstərən kompyuterləşdirilmiş ekran, audio elan sistemi, oturacaqlar, telefon və zibil qabları daxildir.

### 13. Yol Hərəkət Nişanları

Dəqiq şəkildə tərtib olunmuş və standart beynəlxalq yol hərəkəti simvolları və ölçülərinə əsaslanan yol hərəkət nişanları aydın görünəcək yerlərdə asılmalıdır. "Birtərəfli yol", "Dayan", "Giriş Qadağandır", "Gözlə" kimi vacib qaydalara onların çevik və uyğun şəkildə reaksiya vermələri üçün sürücülər məlumatlandırılmalıdır.

### 14. Kəsişmə zonası

Trafikin ən əsas səbəblərindən biri avtomobillərin iki yolun kəsişdiyi zonada ilişib qalmasıdır. Bir çox ölkələrdə sürücülərin kəsişmə zonasından qarşı tərəfdəki yol boşalmayacağı təqdirdə kəsişmə zonasına daxil olması qadağan olunur. Qadağan olunmuş kəsişmə zonaları sarı xətlər ilə rəngləndiyindən, Birləşmiş Krallıqda bu "Sarı Qutu Qaydası" adlanır. Əgər sürücülər qırmızı işıq yandıqdan sonra hələ də kəsişmə zonasındakı sarı qutuda ilişib qalırlarsa, bu trafikin perpendikulyar istiqamətdə normal axışının qarşısını alır. Bu isə sürücülərin cəriməyə məruz qalmasına səbəb olur.

### 15. Avtomobillərin yararsızlığı

Dünyanın bir sıra iri şəhərləri köhnə maşınlara "yararsızlıq proqramının" tətbiq edilməsini tələb edir. Bu proqram şosse yollarında fəaliyyət göstərən avtomobillərin sayına nəzarət edilməsinə yardım edə bilər. Azərbaycanda da belə bir plan

tətbiq edilməlidir. Sistematik şəkildə həyata keçirilən "yararsız avtomobil proqramı" nəinki müddətini başa vurmuş köhnə avtomobillərin sayını azaltmağa, eyni zamanda nəqliyyat sıxlığını yüngülləş-dirməyə və ətraf mühitin çirklənməsinin qarşısını almağa yardım edə bilər.

### 16. Yas mərasimi zamanı qurulan çadırlar

Küçənin ortasında yas mərasimi ilə əlaqədar qurulan çadırlar da yol hərəkətində ciddi problemlər yaradır. Belə hallarda səhər saatlarında istifadə üçün açıq olan yollar günorta saatlarında bağlanılır. Dəhşətli nəqliyyat tıxacları yaranır.

Bu çadırlar vəfat etmiş şəxsin ailə üzvləri və dostlarının bir yerə toplaşdığı və kədərini paylaşdığı yerdir. Bu ənənə cəmiyyətdə çox dəyər verilən bir ənənədir. Əgər mənzillər bütün qonaqları yerləşdirmək üçün kifayət qədər geniş olsaydı, bu mərasimlər evdə keçirilərdi. Lakin hal-hazırki şəraitdə kimsə vəfat etdikdə küçədə qurulan çadırların bu ənənini davam etdirmək üçün effektiv yol olub olmadığı nəzərdən keçirilməlidir.

Küçədə qurulan çadırlara alternativ bir yol axtarmağın bir neçə səbəbi vardır. İlk öncə, bir sıra hallarda sürətlə hərəkət edən avtomobillər çadırların üzərinə gələrək oradakı insanların ölümünə və ya yaralanmasına səbəb olmuşdur.

İkincisi, şəhərin mərkəzində ucaldılan hündürmərtəbəli binalar əhalinin daha sıx cəmlənməsinə səbəb olmuşdur. Bu isə o deməkdir ki, şəhərin mərkəzində ölüm sayları da nisbət etibarı ilə artacaqdır. Buna görə də, hər dəfə kimsə vəfat etdikdə çadır qurulması çox əlverişsiz bir vasitəyə çevrilir.

Toy mərasimləri bunun üçün xüsusi nəzərdə tutulmuş mərasim evlərində keçirildiyi kimi, yas mərasimləri üçün də ayrılmış salonların istifadə olunması mümkünlüyü nəzərdən keçirilməlidir. Yas mərasimilə əlaqədar qurulan çadırlar ictimai yerlərdə problemlər yaradır, buna görə də onların qarşısı alınmalıdır.

### 17. İctimai Xidmət Elanları

Media əhalini maarifləndirmək üçün inanılmaz dərəcədə effektiv vasitə ola bilər. Təhlükəsizlik kəmərinin istifadəsi, kəsişmə zonalarında əngəl törədilməməsi, iki sıra avtomobil saxlanmasının nəticələri, bir yol xəttindən digərinə keçdikdə avtomobilin müvafiq işığının yandırılmadığı təqdirdə yaranan təhlükə, yalnız kəsişən küçələrdə yolu keçməyin vacibliyi, təcili yardım maşınlarına şərait yaradılması üçün avtomobilin yolun bir kənarına çəkilməsi və ya dayandırılması kimi təhlükəsiz avtomobil qaydalarına diqqəti yönəldən ictimai xidmət məlumatları hazırlanmalı və televiziya, radio və mətbuat orqanlarında əhalinin nəzərinə çatdırılmalıdır. Əhalini maarifləndirmək, təhlükəsizlik standartlarını yüksəltmək və trafik axınını yüngülləşdirmək üçün bu elanlar sistematik şəkildə təkrarlanmalıdır.

## Uzun Müddətli Həll Yolları

Boşluqları aradan qaldırmaq üçün həyata keçirilən bəzi qısamüddətli tədbirlərdən sonra hərtərəfli araşdırmalar aparılmalı və fundamental, uzun müddətli dəyişikliklər yerinə yetirilməlidir.

### Hökumətin rolu

Azərbaycanın bələdiyyə sistemini daha effektiv orqana çevirmək üçün fundamental dəyişikliklər və islahatlara ehtiyac vardır. Hal-hazırda şəhərin meri təyin olunur və şəhər icra hakimiyyətinin ağır işinə yardım edəcək Şəhər Məsləhət Şurası adlı bir orqan yoxdur. Əlbəttə ki, bu kimi ölkədaxili siyasi məsələlər hökumət səviyyəsində həll olunmalıdır. Rəsmi məmurların gördüyü işlərə görə məsuliyyət daşımasını şərtləndirən sistemin yaradılması şəhərin effektiv şəkildə idarə edilməsi üçün çox vacibdir.

Bakı Şəhər İcra Hakimiyyətindəki departa-mentlər memarlıq, planlaşdırma, mühəndislik, ictimai işlər və tikinti inşaatı kimi sahələri əhatə edir. Lakin onlar öz fəaliyyətlərində hələ də köhnə Sovet qaydalarına və idarəetmə üsuluna istinad edirlər. Bakı şəhərini idarə etmək üçün müasir, yaxşı təhsil almış menecer, administrator, mühəndis və memarlara ehtiyac vardır. Rüşvətin şəhər idarəçiliyinin bütün təbəqələrində tüğyan etdiyi açıq aydın bir faktdır. Belə bir vəziyyət şəhərin effektiv idarə edilməsini mümkünsüz edir və tikinti prosesində təhlükəsizlik qaydalarına əməl edilmədiyinə görə bütün əhalini böyük təhlükəyə məruz qoyur.

Aşağıdakı təkliflər qeyd edilmiş dövlət orqanlarının fəaliyyətinin gücləndirilməsinə yardım edə bilər.

### 1. Tikinti və Təhlükəsizlik Departamenti

Şəhərin daxilində mövcud olan hal-hazırki böhran Bakı Tikinti Departamentinin yaxşı fəaliyyət göstərmədiyini sübut edir. Belə öhdəlikləri hökumət infrastruktunun ayrılmaz tərkib hissəsinə həvalə etmədən və onlara ciddi surətdə riayət olunmadan heç bir şəhərin inkişafı mümkün deyil.

Tikinti və Təhlükəsizlik Departamenti tikinti üçün lazım olan icazə qərarları vermək səlahiyyətini öz üzərinə götürməli və bütün inşaat prosesinin təhlükəsizlik qaydalarına cavab verib-vermədiyinə nəzarət etməlidir. Eyni zamanda inşaat prosesinin hər bir mərhələsində çertyoj yoxlamaları və təftiş sistemi vasitəsilə inşaat standartlarına riayət edilməsini tələb etmək onların məsuliyyətinə daxil olmalıdır.

Əslində isə bu gün Bakıda belə bir önəmli departament fəaliyyət göstərmir. Geniş çərçivədə bu cür fəaliyyət göstərən Tikinti və Təhlükəsizlik Departamenti yaradılmalıdır. Onun uğurlu fəaliyyətini təmin etmək üçün isə gənc, savadlı və işinə vicdanla yanaşan texniki heyət işə cəlb olunmalıdır. Onlar Bakı ilə eyni seysmik şəraitə malik olan Los Anceles, San Fransisko kimi şəhərlərdə təlim keçməlidirlər.

### 2. Baş Plan

Bakının digər yaxşı idarə olunan kosmopolitan mərkəzlərdəki kimi Baş Plana ehtiyacı var. Baş Plan şəhərin müasir tələblərinə cavab verən və eyni zamanda gələcək ehtiyac və inkişafını özündə ehtiva edən qaydalara əsasən hazırlanmalıdır. Son onillikdə




ELMAN GURBANOV

Bakının mövcud Baş Planı azad sahibkarlığın hökm sürdüyü iqtisadiyyata əsaslanan müstəqil dövlətin reallıqlarına cavab vermək üçün nə dəyişdirilmiş, nə də ki ona uyğunlaşdırılmışdır.

Hal-hazırda gedən tikinti və inşaat işləri mövcud Baş Plana uyğun şəkildə həyata keçirilməmişdir. Məsələn, hətta ictimai parklar və açıq ictimai ərazilər belə özəlləşdirilmiş və fərdi şəxslər tərəfindən istifadəyə verilmişdir. Əhalinin sıxlığı, binaların hündürlüyü ilə bağlı məsələləri və yaşayış, kommersiya, ictimai binalar, sənaye sahələri, park və yaşıl zonalardan istifadəni özündə əks etdirən və onlara nəzarət edən Zonal Qanunlara əməl etmək diqqətdən təmamilə yayınmışdır.

Hərtərəfli düşünülmüş Baş Plan şəhər əhalisinin faydalana biləcəyi qərarlar vermək üçün lazım olan qaydaları özündə cəmləşdirməlidir. Baş Planı hazırlamağın ən effektiv yolu özəl beynəlxalq sektoru təmsil edən, memarlıq və mühəndis planlaşması sahəsində çalışan mütəxəssis məsləhətçilərdən ibarət komissya yaratmaqdır. Belə bir mürəkkəb işə lazımi təcrübə və bacarıq sərf edə biləcək mütəxəssislər seçilməlidir.

Model şəhərlər öyrənilməlidir. Məsələn, 30 ildən də az bir müddətdə kiçik, sadə bir şəhərin inanilmaz dərəcədə inkişaf etmiş, dinamik beynəlxalq kosmopolitan bir şəhərə çevrilməsinin ən gözəl nümunəsi Dubay şəhəridir (Birləşmiş Ərəb Əmirlikləri). Çin əsaslı şəhər inkişafı və tam transformasiya prosesinə uğrayan digər bir nümunə ölkədir. Bu prosesin gedişi zamanı Çin memarlıq, planlaşma və mühəndislik sahəsində fəaliyyət göstərən dünyanın ən yüksək səviyyəli mütəxəssislərini bu işə cəlb etmişdir.

## 3. İnşaat Standartları

Azərbaycanın mövcud İnşaat Standartlarını müasir tələblərə cavab verən standartlara uyğunlaşdırması çox vacibdir. Savadlı və təcrübəli memar, layihə mütəxəssisi və mühəndislərdən ibarət komissiya yaradılmalı və onlar da Azərbaycan İnşaat Standartlarını müəyyən etməlidirlər.

Bununla bağlı Azərbaycanın yenidən "Amerika kəşf etməsi" vacib deyil. Azərbaycan memarlıq, planlaşdırma, mühəndislik, tikinti və inşaat sənayesinin qlobal nailiyyətlərindən istifadə edə bilər. Azərbaycan kimi seysmik şəraitə malik olan dünyanın digər iri şəhərlərində mövcud olan inşaat standartları öyrənilməli və qiymətləndirilməlidir.



ELMAN GURBANOV



ELMAN GURBANOV

Yuxarida: Heydər Əliyev Prospektində yerləşən (keçmiş adı Moskva Prospekti) Bağırov Dəmiryol Körpüsü aeroporta gedən yolun üzərində yerləşir.. Azərbaycan Kommunist Partiyasının Baş Katibi və Stalinin Azərbaycandakı sağ əli olan Mir Cəfər Bağırov aeroporta tələsərkən dəmiryol qatarının həmin yoldan keçməsi onun gecikməsinə səbəb oldu. Bu hadisədən sonra Bağırov burada körpü tikilməsi haqda göstəriş verib və bu körpü 1953-cü ildətikilib. Bakıda çox az sayda alt və üst keçidli yollar vardır. Körpülər nəqliyyatın axının yüngülləşdirmək üçün çox vacibdir.

Hyatt Otelinin yanındakı Bakıxanıv Körpüsü Tbilisi Prospektinin üstündən keçir.

Məsələn, Vahid İnşaat Standartlarının Kaliforniya ştatı üçün nəzərdə tutulan bölməsi Azərbaycan üçün model rolunu oynaya bilər, çünki bu bölmədə oxşar ciddi seysmik şəraitə malik ərazilər nəzərdə tutulur. Daha sonra bu qaydalar Azərbaycandakı memarlıq üslubu, mədəniyyət, iqlim və ətraf mühit faktorları nəzərə alınmaqla dəyişdirilə və tətbiq edilə bilər.

## 4. Milli Standartlaşdırma

Azərbaycanda Milli Standartlaşdırma İnstitutu təsis etmək qarşıda duran mühüm vəzifələrdən biridir. Belə bir müəssisə ölkə daxilində istehsal və ya xaricdən idxal olunmasından asılı olmayaraq satılan hər bir məhsulun nizamlanması üçün məsuliyyət daşımış olardı. Hər bir məhsul üçün İnstitut tərəfindən onun keyfiyyət və təhlükəsizlik kriteriyalarına cavab verdiyini təsdiq edən sertifikat təqdim